

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 52 (21.204)

14 mart 2015-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Avropa Şurası Parlament Assambleyasının siyasi işlər və demokratiya komitəsinin məruzəçisi Robert Uolteri qəbul edib.

Görüşdə Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlığın inkişafı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesi və münaqişənin nizama salınması perspektivlərinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.



## 2015-ci ilin yanvar-fevral ayları üzrə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı

Muxtar respublikada cari ilin yanvar-fevral aylarında 304 milyon 134 min manatlıq Ümumi Daxili Məhsul istehsal olunmuşdur ki, bu da 2014-cü ilin yanvar-fevral ayları ilə müqayisədə 1,5 faiz çoxdur.

Hər bir nəfərə düşən Ümumi Daxili Məhsulun həcmi 2014-cü ilin yanvar-fevral ayları ilə müqayisədə 1,7 faiz artaraq 691,1 manata (840,2 ABŞ dollarına) çatmışdır.

* * *

Muxtar respublikada yaradılan Ümumi Daxili Məhsulun tərkibində ilk yeri sənaye



sahəsi tutur. Sənaye üzrə 156 milyon 909 min manat həcmində məhsul istehsal edilmişdir ki, bu da 2014-cü ilin müvafiq dövründəki göstəricini 2,3 faiz üstələmişdir.

* * *

İnfrastruktur quruculuğu çərçivəsində əsas kapitala 157 milyon 590 min manat



həcmində investisiya yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 1,5 faiz çoxdur. Cari ildə əsas kapitala yönəldilmiş investisiyaların 136 milyon 907 min manatı və ya 86,9 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

2015-ci ilin yanvar-fevral aylarında informasiya və rabitə xidmətlərinin həcmi 8 milyon 378 min manat olmuşdur ki, bu da 2014-cü ilin yanvar-fevral ayları ilə müqayisədə 2,5 faiz çoxdur. Bu müddət ərzində mobil rabitə xidmətlərinin həcmi 6 milyon 979 min manat olmaqla bir il öncəki göstəricini 0,9 faiz üstələmişdir.

* * *

Cari ilin yanvar-fevral ayları ərzində 12 milyon 681 min manat həcmində kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur. Bu, 2014-cü ilin müvafiq dövründəki göstəricidən 5,2 faiz çoxdur. Bu dövr ərzində muxtar respublikada 3,2 min ton ət (diri çəkidə), 4,7 min ton süd istehsal edilmiş, 2014-cü ilin yanvar-fevral ayları ilə müqayisədə ət istehsalı 5,3 faiz, süd istehsalı 1,2 faiz artmışdır.

* * *

Əhali gəlirləri üzrə müsbət dinamika davam etməkdədir. Cari ilin yanvar-fevral aylarında muxtar respublikada əhalinin gəlirləri 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 1,8 faiz artaraq 236 milyon 217 min manat, onun hər bir nəfərə düşən həcmi isə 0,9 faiz yüksələrək 536,7 manat təşkil etmişdir.

* * *

2015-ci ilin yanvar-fevral aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqının məbləği 391,7 manat təşkil etmiş və bu göstərici əvvəlki ilin müvafiq dövrünə nisbətən 3,9 faiz artmışdır.

* * *

Muxtar respublika iqtisadiyyatının möhkəmlənməsində, hərtərəfli və dinamik inkişafında xüsusi rolu olan bank sektorunun normal fəaliyyəti təmin olunmuşdur. 1 mart 2015-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 40777-yə çat-



mışdır ki, bunun da 37379-u və ya 91,7 faizi aktiv hesablardır. 2015-ci ilin yanvar-fevral aylarında açılmış 2523 bank hesabının 2521-i və ya 99,9 faizi aktiv hesablar olmuşdur.

Cari ilin yanvar-fevral aylarında muxtar respublikada 69 POS-terminal quraşdırılmış və bu göstərici 1 mart 2015-ci il tarixə 936-ya çatmışdır.

* * *



Muxtar respublika iqtisadiyyatının şaxələndirilməsi və dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmışdır. Cari ilin yanvar-fevral aylarında muxtar respublikada 41 milyon 469 min Amerika Birləşmiş Ştatları dolları həcmində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın həcmi son bir il ərzində 1,9 faiz artaraq 36 milyon Amerika Birləşmiş Ştatları dollarını ötmüş, idxalın həcmi isə 74,1 faiz azalaraq 5 milyon 329 min Amerika Birləşmiş Ştatları dolları həcmində olmuşdur. Xarici ticarət üzrə 30 milyon 812 min Amerika Birləşmiş Ştatları dollarına yaxın həcmdə müsbət saldo yaranmışdır.

* * *

Sahibkarlıq strukturlarının kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmaqdadır. 2015-ci ilin yanvar-fevral aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 19 milyon 957 min manata yaxın kreditlər verilmişdir ki, bu da 2014-cü ilin müvafiq dövründəki göstərici ilə müqayisədə 2,9 dəfə çoxdur.

* * *

Qeyd olunan dövrdə muxtar respublikada bütün sığorta növləri üzrə daxilolmalar 791,2 min manat olmuşdur ki, bu da 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 65,5 min manat və ya 9 faiz çoxdur.

* * *

2015-ci ilin yanvar-fevral aylarında muxtar respublikaya 40 min 476 nəfər turist gəlmişdir ki, bu da 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 1,9 faiz və ya 752 nəfər çoxdur.

* * *



1 fevral 2015-ci il tarixə muxtar respublikada əhalinin sayı bir il öncəyə nisbətdə 4425 nəfər və ya 1 faiz artaraq 440101 nəfər təşkil etmişdir.

**Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti**

*2015-ci ilin ilk 2 ayı ərzində Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi və onun yerli orqanları tərəfindən muxtar respublika ərazisində operativ nəzarətin əhatə funksiyalarına daxil olan məsələlər üzrə 23 vergi ödəyicisində qanunvericiliyin pozulması faktları aşkar edilib və müvafiq tədbirlər görülüb.*

## Operativ vergi nəzarəti tədbirləri gücləndirilir

Məsələ ilə bağlı nazirliyin Qanunsuz sahibkarlığın aşkar edilməsi şöbəsinin rəisi, vergi xidməti müşaviri Rəşad Əliyev bildirib ki, həyata keçirilən operativ nəzarət tədbirləri zamanı 3 vergi ödəyicisi tərəfindən əhali ilə nağd hesablaşmaların aparılması qaydalarının pozulması, 6 vergi ödəyicisi tərəfindən isə xarici valyuta məbləğlərinin ödəniş vasitəsi kimi qəbul edilməsi qeydə alınıb. Bundan başqa, bəhs edilən dövrdə valyuta sərvətlərinin ticarət, iaşə və xidmət müəssisələrində qanunvericiliklə müəyyən edilən qaydalar pozulmaqla alınıb-satılması və ya dəyişdirilməsi faktları da operativ tədbirlər zamanı aşkara çıxarılan faktlar arasında olub. Bu ilin yanvar-fevral aylarında 5 nəfərin "fərqlənmə nişanı" olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşıması, 3 vergi ödəyicisinin xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə belə razılıq (lisenziya) olmadan məşğul olması, 5 vergi ödəyicisinin isə aksiz markası olmadan alkoqollu içki və tütün məmulatlarının satışı ilə məşğul olması nəzarət tədbirləri zamanı aşkar edilib və qarşısı alınıb.

Rəşad Əliyev onu da deyib ki, bu ilin ilk iki ayında keçirilən nəzarət tədbirləri zamanı 1 şəxsin vergi orqanlarında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olduğu faktı qeydə alınıb. Həmin şəxs barəsində qanunamüvafiq qaydada tədbirlər görülüb. Aparılan operativ nəzarət işləri zamanı tərtib edilmiş 1625 manat inzibati cərimə və maliyyə sanksiyası məbləğlərinin tamamilə büdcəyə ödənilməsi təmin edilib. Qeyd olunan dövrdə vergidənyayınma və dövriyyənin gizlədilməsi hallarına qarşı mübarizə məqsədilə 1 vergi ödəyicisində xronometraj metodu ilə müşahidə aparılıb. Müşahidə zamanı müşahidəyədək olan dövriyyələrlə müqayisədə 1000 manat dövriyyə artımına nail olunub.

## Bu il muxtar respublikada 540 hektar sahədə yaşıllıqların salınması nəzərdə tutulub



Ötən il olduğu kimi, 2015-ci ildə də muxtar respublikada meşə fondu torpaqlarında, magistral avtomobil yollarının ətrafında, yarımsəhra və səhralaşmaya meyilli ərazilərdə yaşıllaşdırma tədbirlərinin aparılması davam etdiriləcək. Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyindən verilən məlumata görə, cari ildə 540 hektar sahədə yaşıllaşdırma tədbirlərinin aparılması nəzərdə tutulub ki, bunun da 200 hektarında meyvə ağacları əkiləcək. Artıq nazirlik tərəfindən ağac əkinlərinin aparılmasına başlanılıb.

Xatırladaq ki, ötən il muxtar respublikada 536,5 hektar sahədə yaşıllaşdırma tədbirləri həyata keçirilib. Bu tədbirlər zamanı 440 min 700 ədəddən artıq ağac və bəzək kolları əkilib.

Qeyd edək ki, ana təbiətin əsas qoruyucu vasitələrindən biri də yaşıllıqların mühafizəsi və artırılmasıdır. Yaşıllıqlar ekoloji mühitin tarazlığının saxlanılması ilə yanaşı, həm də sağlamlıq mənbəyi rolunu oynayır. Müdriklərimizin "Harada yaşıllıq varsa, orada həyat var" fikri də təbiətə qayğı göstərməyin bir daha vacib olduğunu göstərir. Müasir dövrdə yaşıllıqların artırılması yönündə atılan hər bir addım bizə sağlam yaşamağa və təbiətin saysız-hesabsız nemətlərindən hərtərəfli istifadə etməyə şərait yaradır. Naxçıvan Muxtar Respublikasında da bu sahədə həyata keçirilən tədbirlər ekoloji tarazlığın pozulmasının qarşısının alınması, təbii sərvətlərimizin qorunub saxlanması kimi ümumbəşəri əhəmiyyət daşıyır.

**Xəbərlər şöbəsi**

**XX əsrin 20-ci illərində Azərbaycanda, eləcə də Naxçıvan diyarında baş verən hadisələr çox mürəkkəb, ziddiyyətli və çətin olmuşdur. Azərbaycanın düşdüyü daxili, qarşılaşdığı beynəlxalq vəziyyət elə ağır idi ki, bir sıra hallarda Naxçıvana lazımi səviyyədə köməklik göstərə bilmirdi. Bundan istifadə edən erməni daşnakları Naxçıvan diyarına sahib olmaq üçün bütün vasitələrdən istifadə edirdilər. Bir sıra kapitalist dövlətlərinin himayəsindən, yardım və dəstəyindən istifadə edən erməni cəlladları Naxçıvan diyarına hərbi basqınlar edir, qırğınlar törədir, şəhər və kəndləri dağıdır, ağlasığmaz vəhşiliklər törədir, lakin yerli əhalinin inadlı mübarizəsi, qəhrəmanlığı sayəsində onlar öz məkrli niyyətlərinə nail ola bilmirdilər. Bununla belə, 1918-1920-ci illərdə erməni daşnaklarının hərbi basqınları nəticəsində Naxçıvan diyarında faciəli hadisələr baş vermişdi. Bu hadisələrə böyük kapitalist dövlətlərinin müdaxiləsi, ikili siyasət yeritmələri Naxçıvan məsələsini beynəlxalq müstəviyə çıxarmışdı. Naxçıvan diyarının gələcək tarixi taleyində, onun Azərbaycanın tərkibində muxtariyyət statusunda qalmasında keçən əsrin 20-ci illərində bağlanan müqavilələrin böyük rolu olmuşdur.**

*Moskva müqaviləsi – 94*

# Moskva müqaviləsi və Naxçıvanın ərazi mənsubiyyəti məsələsi

Azərbaycanda Sovet hakimiyyətinin qələbəsindən sonra da daşnak silahlı qüvvələrinin təcavüzkar hərəkətləri nəticəsində Naxçıvan diyarında gərginlik hələ də davam edirdi. RSFSR hökumətinin daşnak hökuməti ilə danışıqlar vasitəsilə münaqişəni həll etmək cəhdi baş tutmadı. 1920-ci ilin iyulunda Naxçıvan, Culfa və Ordubad əhalisi N.Nərimanova, Q.Orconikidzeyə məktubla müraciət etdi. Məktubda deyilirdi: "Yerli əhali öz qüvvəsi ilə daşnaklardan müdafiə olunur. Qızıl ordunun köməyi ilə bizim diyarı azad etməyi və Azərbaycanla birləşdirməyi təmin etməyi təvəqqe edirik".

XI ordunun köməyi ilə 1920-ci il iyulun 28-də Naxçıvan diyarında Sovet hakimiyyəti quruldu və Naxçıvan SSR elan edildi, respublikanın ali hakimiyyət orqanı – Naxçıvan İnqilab Komitəsi yaradıldı. Avqustun 10-da Naxçıvan İnqilab Komitəsi Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri N.Nərimanova məktub göndərdi. Məktubda deyilirdi: "Naxçıvan camaatının çox böyük əksəriyyətinin qərarı ilə Naxçıvan diyarı özünü Azərbaycan SSR-in ayrılmaz tərkib hissəsi hesab etmişdir".

Rusiya rəhbərlərinə gəldikdə isə onlar Türkiyə ilə diplomatik münasibətlər yaratmaq istəsələr də, Ermənistandan Türkiyəyə qarşı bir vasitə kimi də istifadə etməyə çalışırdılar. Ermənistan, Azərbaycan və Türkiyənin qarşılıqlı münasibətləri məsələlərinin həllində İ.Stalin Rusiyanın mənafelərindən çıxış edərək həmişə Ermənistanın mövqeyini müdafiə edirdi. O deyirdi: "Əgər bilmək istəyirlərsə ki, Zəngəzur və Naxçıvan kimə məxsus olmalıdır, onları Ermənistanın indiki hökumətinə vermək olmaz, sovet hökuməti olanda vermək olar". İ.Stalinin bu çıxışından 25 gün sonra Ermənistanda Sovet hakimiyyəti quruldu. Ermənistan bolşeviklərin nəzarətinə keçən kimi Azərbaycan Hərbi İnqilab Komitəsi 1 dekabr 1920-ci ildə bəyanatla çıxış etdi. N.Nərimanovun imzası olan bəyanat Rusiyanın diktəsi ilə yazılmışdı və "iki sovet respublikası arasında ərazi mübahisələrinin" Azərbaycanın milli mənafelərinə zidd şəkildə həll edilməsinə yönəlmişdi.

Məlum bəyanatdan sonra Naxçıvan bölgəsində daxili vəziyyət xeyli mürəkkəbləşmiş, onun üstündə mübahisə və münaqişələr xeyli kəskinləşmişdi. Naxçıvan məsələsi Rusiya-Ermənistan və Türkiyə-Ermənistan danışıqlarında mühüm yer tuturdu. Ermənistan Rusiya və Türkiyə arasında siyasi manevrlər edərək onların münasibətlərindən və yaranmış şəraitdən istifadə etməyə çalışırdı. Rusiyaya gəldikdə isə o, Türkiyə ilə yaxınlaşmaq xəttini yeritsə də, erməniləri müdafiə etməsini də gizlətmirdi. Ermənistan isə Naxçıvan və başqa ərazilərlə bağlı niyyətlərini həyata keçirmək üçün ən çox Rusiyaya ümid bəsləyirdi. Ermənistan 1920-ci il dekabrın 2-də həm Rusiya, həm də Türkiyə ilə müqavilə bağladı. RSFSR ilə sovet Ermənistanı arasında bağlanan hərbi-siyasi sazişə görə, keçmiş İrəvan quberniyasının Ermənistanın tərkibinə daxil olmasından sonra Sovet hökuməti tərəfindən mübahisəsiz tanınması qəbul edilirdi. Türkiyə ilə Ermənistan arasında bağlanan Gümrü (Aleksandropol) müqaviləsi Rusiyanın təhriki ilə Ermənistan tərəfindən qəbul edilmədi. Lakin bununla belə, bu müqaviləyə görə, Naxçıvan bölgəsinin düşmən əlinə keçməməsi üçün "həmin ərazidə hələlik Türkiyənin himayəsində yerli hökumət yaradılması" qərara alınmışdı. Müqavilənin 12-ci maddəsinə əsasən, Türkiyə hökuməti Şərur, Naxçıvan, Şahtaxtı və Culfa yolu ilə tranzit işlərinin sərbəstliyinin təminatını öz üzərinə götürdü.

1920-ci il dekabrın 28-də Ermənistan SSR Hərbi İnqilab Komitəsi bəyanatla çıxış edərək Naxçıvan əhalisinə öz müqəddəratını azad surətdə təyin etmək hüququ verildiyini bildirdi. Lakin 1921-ci ilin əvvəllərindən başlayaraq heç bir bəyanat verməmiş kimi yenə də Naxçıvana qarşı haqsız ərazi iddiaları irəli sürdü.

1920-ci ildə Türkiyə xalqı öz vətəninin müstəqilliyi uğrunda mübarizə aparırdı. Türkiyənin inqilabi hökuməti Sovet Rusiyası ilə dostluq əlaqələri yaratmışdı. 1920-ci il aprelin 26-da Türkiyə Böyük Millət Məclisi yardım üçün V.İ.Leninə müraciət etdi. Həmin ilin yayından başlayaraq Türkiyə hökuməti Rusiya ilə diplomatik münasibətlər qurmaq və iki ölkə arasında dostluq müqaviləsi imzalamaq üçün fəallığını artırdı və bunun üçün Bəkir Sami bəyin başçılığı ilə nümayəndə heyəti Moskvaya gəldi. Danışıqlar nəticəsində sovet-türk müqaviləsinin layihəsi hazırlandı. Gələcəkdə Rusiya-Türkiyə danışıqlarının Bakıda keçirilməsi razılaşdırıldı. Lakin bir qədər sonra G.Çiçerin konfransın Moskvada keçiriləcəyini və burada Azərbaycan və Ermənistan nümayəndələrinin də iştirak edəcəyini bildirdi. Əslində, G.Çiçerin konfransa Azərbaycanı və Ermənistanı qatmaqla həm bu dövlətlərin xarici siyasətini öz əlində cəmləşdirmək və Türkiyəyə qarşı qoymaq, həm də gələcəkdə Güney Qafqazdakı niyyətlərini həyata keçirmək üçün zəmin hazırlamaq istəyirdi.

Türkiyə bu təkliflə razılaşmadı. Onlar Azərbaycan, Gürcüstan və Ermənistanla müqavilə bağlamaq istəyirdilər. Üstəlik, Türkiyə bildirirdi ki, onların Azərbaycanla heç bir mübahisəli məsələsi yoxdur. Ermənistana gəldikdə isə Türkiyə Gümrü (Aleksandropol) müqaviləsini qüvvədə hesab edir və ondan imtina etmək istəmirdi.

Azərbaycan da Rusiya tərəfindən olan təklifləri qəbul etmək istəmirdi. Bununla əlaqədar Azərbaycanın Rusiyadakı fövqəladə və səlahiyyətli nümayəndəsi Behbud ağa Şahtaxtinski M.D.Hüseynova yazırdı: "...Mən şəxsən konfransda Azərbaycanın iştirakının əleyhinəyəm. Çünki mən orada heç nə haqqında qətiyyətli danışa bilmərəm... Rusiya türklərlə danışıqları dostluq və qardaşlıq haqqında aparır, ittifaq haqqında aparmır".

1921-ci ilin fevral ayında Ankara hökumətinin yeni Xarici İşlər naziri Yusif Kamal bəyin başçılığı ilə Əli Fuad və doktor Rza Nurdan ibarət diplomatik nümayəndə heyəti Moskvaya gələrək yeni danışıqlara başladı. Danışıqlarda Rusiya tərəfindən Xalq Xarici İşlər komissarı G.Çiçerin və RSFSR MİK üzvü C.Qorxmazov iştirak edirdilər. Müzakirələr çox gərgin keçmiş və hətta danışıqlar bəzən pozulmaq həddinə çatmışdı. Bir sıra məsələlərlə yanaşı, danışıqlarda Naxçıvan məsələsinə də xüsusi əhəmiyyət verilmişdi. Türkiyənin bu məsələyə böyük önəm verməsi bölgənin strateji və geosiyasi mövqeyi ilə yanaşı, həm də Naxçıvanın Türkiyə -Azərbaycan əlaqələrində ən yaxın məsafədə yerləşməsi idi.

Moskva danışıqlarında Azərbaycanın təmsilçisi Behbud ağa Şahtaxtinski də iştirak etmiş və uğurlu nəticənin əldə edilməsində onun mühüm xidməti olmuşdur. Belə ki, o, 1921-ci il martın 1-də V.İ.Leninə göndərdiyi məktubda Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ ərazilərinin gələcəyindən duyulan rahatsızlığı çatdırmış, bu mahalların milli tərkibi və coğrafiyasına dair arayışları da əlavə etmiş, Güney Qafqazda sərhəd məsələləri və xüsusilə də Naxçıvan bölgəsi ilə bağlı faydalı təkliflər vermişdi. Lenin bunlarla tanış olduqdan sonra onu Siyasi Büroya göndərmişdi. Behbud ağa Şahtaxtinskinin məktubuna martın 16-da Stalinin, Çiçerinin və başqalarının iştirakı ilə baxılmış və onun təklifləri nəzərə alınmaqla Azərbaycanın himayəsində Naxçıvana muxtariyyət statusu verilməsi haqqında qərar qəbul olunmuşdu.

Bütün bunlar Moskva müqaviləsində ifadə olundu. Bir aya yaxın davam etmiş danışıqların yekunu 1921-ci il martın 16-da imzalanmış "Dostluq və qardaşlıq haqqında" PSFSR-Türkiyə müqaviləsində öz əksini tapdı. Moskva müqaviləsi 16 maddədən və 2 əlavədən ibarət idi.

Müqavilə ilə tərəflər onlara zorla qəbul etdirilən ikitərəfli və beynəlxalq müqavilələri rədd edirdilər. Türkiyə hökuməti tərəfindən qəbul edilməyən müqaviləni Rusiya hökuməti də rədd edirdi. Türkiyə Batum şəhərinə və limanına suverenlik verilməsinə razı olurdu. Bu şərtlə, ona qanuni idarəçilik, geniş muxtariyyət, vətəndaş hüquqlarının qorunması haqqı verilməli idi. Tərəflər Qara dənizin beynəlxalq statusu ilə bağlı razılığa gəlirdilər. Bu, Türkiyənin suverenliyinə, təhlükəsizliyinə, o cümlədən İstanbulun təhlükəsizliyinə xələl gətirməməli idi. Rusiya işğal rejiminin hər hansı ölkənin azad milli inkişafı ilə bir araya sığmadığını göstərirdi. Tərəflər bir-birlərinin ərazilərində hakimiyyətə gəlmək istəyən qrupların fəaliyyətinə yol verməməli idilər. Bir ölkədən çıxıb digərində yaşayanlar yaşadıqları ölkənin qanunlarına tabe olmalı idilər. 1918-ci ilədək Rusiyaya məxsus olan ərazilərdə yaşayan vətəndaş öz əmlakı ilə köçüb Rusiyaya gedə bilərdi. Tərəflər 3-6 ay müddətində hərbi əsirləri və həbs olunmuş rus və türk vətəndaşlarını geri qaytarmalı idi. Tərəflər konsulluq münasibətləri qurmalı, iqtisadi və maliyyə məsələlərinə dair saziş imzalamalı idilər. Onlar Qafqaz respublikaları qarşısında öhdəlik götürürdülər.

Moskva müqaviləsinin üçüncü maddəsi və I (B) əlavəsi bilavasitə Naxçıvanla bağlı idi. Müqavilənin 3-cü maddəsinə əsasən, belə bir qarşılıqlı qərar qəbul edildi ki, Naxçıvan vilayəti bu müqavilənin I (B) əlavəsində göstərilən sərhədlərdə Azərbaycanın himayəsi altında Azərbaycanın heç bir üçüncü dövlətə güzəştə getməməsi şərti ilə muxtar ərazi təşkil edir. "Naxçıvan ərazisi" adlı I (B) əlavəsində isə bölgənin sərhədləri müəyyənləşdirildi: "Ararat stansiyası-Saray-Bulaq dağları-Kömürlüdağ-Sayatdağ-Qurdqulaq kəndi-Həməsur dağı-yüksəklik (8022)-Kükürdağ və keçmiş Naxçıvan qəzasının şərq inzibati sərhədi".

Beləliklə, Rusiya hökumətinin ermənipərəst mövqeyinə və riyakar siyasətinə baxmayaraq, Naxçıvan əhalisinin qətiyyətli, dönməz iradəsi, Türkiyənin prinsipial və ədalətli mövqeyi və Behbud ağa Şahtaxtinski kimi milli mənafelərdən çıxış edən siyasi xadimlərin səyləri ilə Naxçıvan Azərbaycanın tərkibində saxlanıldı. V.İ.Lenin Türkiyə ilə sülh sazişindən danışarkən demişdi ki, bu, "bizi Qafqazdakı daimi müharibələrdən xilas edir". Lakin bu sözlər özünü doğrultmadı. N.Nərimanov qeyd etmişdir ki, "Sovet Rusiyası və Türkiyə ilə müqaviləyə əsasən, Naxçıvan Azərbaycanın himayəsi altında müstəqil respublika elan olunur. Orda bizim nümayəndəmiz olacaqdır və biz bütün münasibətlərdə Naxçıvana xidmət edəcəyik". Yusif Kamal bəy isə yazmışdır ki, "Naxçıvan müsəlmanları bir daha soyqırımına məruz qalacağı halda, türk ordusunun buna biganə qalmayacağı rəsmi olaraq sənədləşdirilmişdir".

Moskva müqaviləsinin imzalanmasının böyük tarixi əhəmiyyəti vardır. İlk növbədə, bu müqavilə Rusiya ilə Türkiyə arasında mövcud olan problemləri həll etdi. Rusiya və Türkiyə sıx ittifaqda birləşdi, təbii müttəfiqə çevrildilər. Moskva müqaviləsi Azərbaycanın bütövlüyünü qorudu və Naxçıvanın ərazi mənsubiyyəti məsələsinə aydınlıq gətirdi. Bu müqaviləyə görə, qədim türk-oğuz yurdu olan Naxçıvan Azərbaycan sərhədləri içərisində qaldı.

Bütün bunlarla bərabər, erməni daşnakları XX əsr boyu, eləcə də 90-cı illərin əvvəllərində Naxçıvana silahlı basqınlar etmiş, Moskva və Qars müqavilələrinin ləğv edilməsi üçün xeyli fəallaşmışlar. Son illərdə isə onlar bu barədə bir sıra dövlətlərə və beynəlxalq təşkilatlara müraciət etmişlər.

Erməni işğalına məruz qaldığımız, Naxçıvan Muxtar Respublikasına erməni iddialarının artdığı indiki zamanda Moskva beynəlxalq müqaviləsinin əhəmiyyəti daha aydın şəkildə nəzərə çarpır və Naxçıvanın muxtariyyətinin qorunmasında əvəzsiz rol oynayır. Təsadüfi deyil ki, ümummilli liderimiz Heydər Əliyev 1992-ci ilin mart ayında Türkiyə Cümhuriyyətində olarkən Moskva və Qars müqavilələrini qaldırmış və bu müqavilələrin xalqımızın həyatındakı tarixi rolunu yüksək qiymətləndirmişdir.

*Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət statusunun verilməsindən 90 ildən artıq vaxt keçir. Bu, beynəlxalq Moskva müqaviləsi ilə rəsmiləşdirilib. Özü də müddətsiz dövr üçün. Bu muqavilənin müddətsiz bağlanması onun tarixi əhəmiyyətini daha da artırır. Dövlətlərarası münasibətlər baxımından bu növ müqavilələr daimilik xarakterinə malikdir. Mübaliğəsiz demək olar ki, ifrat erməni millətçilərinin Moskva müqaviləsini qüvvədən salmaq üçün dəfələrlə müxtəlif hiylələrə əl atmalarına baxmayaraq, bu tarixi sənəd 94 ildir ki, özünün həyat vəsiqəsini daşıyır və Naxçıvanın təhlükəsizliyini qoruyur.*

**İsmayıl HACIYEV**
**AMEA Naxçıvan Bölməsinin sədri, akademik**

*Əziz Şərif – 120*

# Görkəmli elm xadiminin 120 illik yubileyi qeyd edilib



*Babək Rayon Mədəniyyət Evində görkəmli elm xadimi Əziz Şərifin 120 illik yubileyi münasibətilə konfrans keçirilib.*

Konfransı giriş sözü ilə rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Ceyhun Fərəcov açıb.

Tədbirdə muxtar respublika Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyət üzrə Elmi Metodik Mərkəzinin şöbə müdiri Fərzalı Səfərovun, Cəlil Məmmədquluzadənin Nehrəm kəndindəki xatirə muzeyinin direktoru Akif Hacıyevin, Babək Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Fatma Bağırovanın, rayon Uşaq musiqi məktəbinin müəllimi Vəfa Əsgərovanın çıxışları olub.

Çıxışlarda qeyd edilib ki, maraqlı həyat və zəngin yaradıcılıq yolu keçən Əziz Şərif ədəbi tənqid və ədəbiyyatşünaslıq sahəsində səmərəli fəaliyyət göstərib, XIX-XX əsrlər Azərbaycan ədəbiyyatının az tədqiq olunan ədəbi şəxsiyyətləri haqqında qiymətli əsərlər yazıb. Çoxlu məqalələrin, elmi əsərlərin, tənqidi-bioqrafik oçerk və monoqrafiyaların müəllifi olan Əziz Şərifin elmi fəaliyyəti və axtarışları nəticəsində Azərbaycanın görkəmli yazıçılarının bir sıra əsərləri, XIX-XX əsrlərə dair çoxsaylı məktublar, sənəd və fotoşəkillər, qiymətli arxiv materialları aşkarlanaraq elmi və ədəbi mühitə təqdim edilib.

Azərbaycan ədəbiyyatının görkəmli tədqiqatçısı olan Əziz Şərif bədii tərcümə və publisistika sahəsində də səmərəli fəaliyyət göstərib, Azərbaycan klassik yazıçı və mütəfəkkirlərinin əsərlərini rus dilinə tərcümə edib.

XX əsrdə elmi-ədəbi fikrin inkişafında böyük xidmətləri olan Əziz Şərif "Molla Nəsrəddin" məktəbindən aldığı ideyaları ədəbiyyatda, elmdə və ictimai mühitdə gerçəkləşdirməklə Azərbaycan ədəbiyyatşünaslığının möhkəm bünövrəsini yaradıb. O, xalqımızın milli-mənəvi irsinin fədakar təbliğatçısı olub, pedaqoq və elm xadimi kimi şöhrət qazanıb.

**Xəbərlər şöbəsi**

*İstehlakçı hüquqlarının qorunması müasir cəmiyyətimizdə mühüm əhəmiyyət kəsb edən məsələlərdən biridir. 1962-ci il martın 15-də Amerika Birləşmiş Ştatlarında “İstehlakçıların hüquqlarının müdafiəsinə dair Bəyanat” qəbul edilmişdir. Həmin tarixdən etibarən hər il martın 15-i “Ümumdünya İstehlakçı Hüquqlarının Müdafiəsi Günü” kimi qeyd olunur.*

*15 mart Ümumdünya İstehlakçı Hüquqlarının Müdafiəsi Günüdür*

## Muxtar respublikada istehlakçı hüquqları etibarlı müdafiə olunur

1985-ci il aprelin 9-da Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi istehlakçıların hüquqlarının müdafiəsi üçün rəhbər prinsipləri müəyyənləşdirmiş, bu prinsiplərin qəbul olunması nəticəsində istehlakçı hüquqlarının beynəlxalq səviyyədə tanınması təmin olunmuşdur. Hər il Ümumdünya İstehlakçı Hüquqlarının Müdafiəsi Gününün qeyd edilməsi məhz dünya ictimaiyyətinin diqqətini istehlakçı hüquqlarının qorunması problemlərinin həllinə yönəltmək məqsədi daşıyır.

Ölkəmizdə istehlakçıların hüquqlarının müdafiəsi sahəsində dövlət siyasətinin əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ulu öndərin təşəbbüsü ilə 1995-ci il sentyabrın 19-da “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qanunun qəbulundan sonra bu sahədə hüquqi bazanın tam şəkildə formalaşdırılması istiqamətində məqsədyönlü və ardıcıl işlər həyata keçirilmişdir. Ötən müddətdə bu istiqamətdə digər normativ-hüquqi aktlar da qəbul edilmiş, istehlakçı hüquqlarının müdafiəsi ilə bağlı məqsədyönlü islahatlar aparılmışdır.

Azərbaycanda iqtisadiyyatın sürətli inkişafı və buna paralel olaraq beynəlxalq ticarət əlaqələrinin dərinləşməsi istehsal olunan yerli məhsulların ixrac qabiliyyətinin artırılması üçün beynəlxalq standartların qəbulu və tətbiqini vacib məsələyə çevirmişdir. Hazırda ölkəmizdə bu istiqamətdə məqsədyönlü tədbirlər həyata keçirilir. Məqsəd istehsal prosesinin və istehlakçıların tələblərinə əsaslanan iqtisadiyyatın inkişafına nail olmaq, dünya bazarına keyfiyyətli məhsul çıxarılması prosesini sürətləndirməkdən ibarətdir. Bu gün milli standartların beynəlxalq standartlara uyğunlaşdırılması, müasir tələblərə uyğun yeni standartların qəbulu və tətbiqi prosesi uğurla icra olunmaqdadır. Əsas hədəf ölkədə standartlaşdırmanın inkişaf etdirilməsi və standartlar fondunun təkmilləşdirilməsidir. Çünki bu, bilavasitə ölkə iqtisadiyyatının, sahibkarlığın inkişafında, istehlakçı hüquqlarının etibarlı qorunmasında, məhsul və xidmətlərin keyfiyyətinin yüksəldilməsində başlıca amildir.

Naxçıvan Muxtar Respublikasında da keyfiyyətə nəzarət işinin inkişafı və tənzimlənməsi standartlaşdırma, akkreditasiya, metrologiya, uyğunluğun qiymətləndirilməsi üzrə fəaliyyət istiqamətləri vasitəsilə həyata keçirilir. Muxtar respublika iqtisadiyyatının sürətli inkişafı, istehsal müəssisələrinin müasir maddi-texniki baza ilə təchiz olunması beynəlxalq tələblər səviyyəsində qəbul edilən yeni standartların tətbiqinə geniş imkanlar açmışdır. Naxçıvanda istehsal olunan məhsulların yüksəkkeyfiyyətli və rəqabətqabiliyyətli olması, görülən işlərin və göstərilən xidmətlərin müasir standartlara cavab verməsi qarşıda duran prioritet vəzifələrdəndir.

İstehlakçıların tələblərinə əsaslanan iqtisadiyyatın inkişafına nail olunması, daxili, eləcə də xarici bazara keyfiyyətli məhsul çıxarılması prosesinin sürətləndirilməsi standartlaşdırma sahəsində fəaliyyətin müasir tələblər əsasında qurulması ilə mümkündür. Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi öz fəaliyyətində keyfiyyətə nəzarət işinin və bu sahədə texniki tənzimləmə sisteminin müasir tələblərə uyğunlaşdırılmasını əsas istiqamət kimi qəbul edir. Muxtar respublikada iqtisadi inkişafın sürətləndirilməsi məqsədilə proqram xarakterli idarəetmənin təşkili, öz növbəsində, keyfiyyətli məhsul istehsalı üçün ciddi əsaslar yaratmaqdadır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq fərman və sərəncamları ilə təsdiq olunmuş Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı, 2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair, 2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət proqramlarının uğurlu icrası məhsul, iş və xidmətlərin keyfiyyət göstəricilərinin davamlı olaraq yüksəldilməsinə zəmin yaradır. Reallaşdırılan tədbirlər çərçivəsində Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən qida təhlükəsizliyinin idarə edilməsi sistemlərinin tətbiqinə, yeyinti məhsullarının istehsalı, emalı, daşınması və saxlanması vəziyyətinə, ərzaq məhsullarının əmtəə nişanlarının saxtalaşdırılması hallarına, xidmət sahələrində standartlardan istifadənin səviyyəsinə, akkreditasiya sisteminə daxil olan laboratoriyaların ümumi fəaliyyətinə və digər qanunla müəyyən olunmuş vəzifələrin icrasına nəzarət məqsədilə davamlı monitorinqlər təşkil olunur.

2014-cü il ərzində istehlakçı hüquqlarının müdafiəsi tədbirləri çərçivəsində komitə tərəfindən standartların tələblərinə uyğun olmayan 57039 manat dəyərində məhsul satışdan çıxarılmışdır. Yerli istehsal üzrə keyfiyyət göstəricilərinin daha da yaxşılaşdırılması məqsədilə 425 istehsal müəssisəsində müşahidə xarakterli monitorinqlər aparılmış və yeni hazırlanmış texniki-normativ-hüquqi aktlar təsərrüfat subyektlərinə təqdim olunmuşdur. İstehsal və idxal olunan məhsullara keyfiyyət göstəriciləri yoxlanıldıqdan sonra, ümumilikdə, 3258 sertifikat verilmiş, 35 laboratoriyanın akkreditasiyası həyata keçirilmiş və 67 yeni əmtəə nişanının mühafizəsi təmin olunmuşdur.

Muxtar respublikada “İstehlak Mallarının Ekspertizası Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyət göstərməsi də istehlakçıların hüquqlarının qorunmasına xidmət edir. Bu gün istehsal və idxal olunan məhsulların fiziki-kimyəvi və mikrobioloji göstəricilərinin yoxlanması nəzarətdə saxlanılır, məhsullardan nümunələr götürülərək keyfiyyət göstəricilərinin müəyyənləşdirilməsi məqsədilə mərkəzin laboratoriyalarında analiz olunur.

İstehlakçı hüquqlarının qorunmasının əsas məqsədlərindən biri də daxili bazarda süni qiymət artımının qarşısının alınmasından ibarətdir. Muxtar respublikada süni qiymət artımına səbəb ola biləcək halların qarşısının alınması məqsədilə idxal mallarının topdan və pərakəndə satış qiymətləri daim nəzarətdə saxlanılır. Əgər məhsulların qiymətlərində artım müşahidə olunarsa, bunun səbəbləri araşdırılır, müqayisəli təhlillər aparılır. Mövsümi qiymət artımının qarşısının alınmasında, əhalinin fasiləsiz olaraq keyfiyyətli kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsində son illər istifadəyə verilən soyuducu anbarların və istixana komplekslərinin, eləcə də mütəmadi olaraq təşkil olunan kənd təsərrüfatı yarmarkalarının da mühüm rolu vardır.

***Bu gün dünyada keyfiyyət standartlarının tətbiqi səmərəli iqtisadiyyat üçün əsas meyar sayılır. Bu səbəbdən də muxtar respublikada əhalinin sağlamlığının və istehlakçıların hüquqlarının qorunması, ətraf mühitin mühafizəsi məqsədilə standartlaşdırma sahəsində həyata keçirilən məqsədyönlü tədbirlər bundan sonra da davam etdiriləcəkdir.***

**Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin mətbuat xidməti**

*İstehsal müəssisələri*

## “Müasir Məkan”da yeni istehsal sahəsi yaradılıb





***Naxçıvan şəhərində fəaliyyət göstərən özəl müəssisələrdən biri də “Müasir Məkan” ət və ət məhsulları istehsalı müəssisəsidir. Bu müəssisə də dövlət qayğısından bəhrələnib, müəssisəyə Sahibkarlığa Kömək Fondu tərəfindən 2010-cu ilin mart ayında 260 min manat dövlət maliyyə dəstəyi göstərilib.***

Naxçıvan şəhərinin Babək məhəlləsində istehsal müəssisəsi üçün torpaq sahəsi ayrılıb, burada müasir layihə əsasında istehsal sexi, xammal və hazır məhsulların saxlanılması üçün soyuducu anbar, laboratoriya, inzibati bina tikilib istifadəyə verilib. 2011-ci ilin əvvəlində istifadəyə verilən müəssisədə Polşa istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılıb, istehsal prosesinə mərkəzləşdirilmiş qaydada nəzarət təmin edilib. Həmçinin müəssisənin daim təzə ətlə təmin olunması üçün Culfa rayonunun Gülüstan kəndi ərazisində yardımçı təsərrüfat yaradılıb. Hazırda müəssisədə “Naxçıvan”, “Halal” və “Doğma tam” adı ilə hisə verilmiş və bişirilmiş kolbasa, eləcə də sosiska istehsal olunur. Onu da qeyd edək ki, müəssisə fəaliyyətə başlayan zaman 2-3 çeşiddə ət və ət məhsulları istehsal olunurdusa, hazırda burada 24 çeşiddə məhsul istehsal edilir.

Burada xammalın qəbulundan tutmuş satışa çıxarılmasınadək texnoloji proseslərə ciddi əməl olunur: ət və hazır məhsul laborator analizdən keçirildikdən sonra istehsala və satışa buraxılır.

“MM” əmtəə nişanı ilə satışa çıxarılan məhsullar alıcılar tərəfindən rəğbətlə qarşılanır. Müəssisədə istehsal olunan məhsulların ölkəmizin digər regionlarında satışını təmin etmək məqsədilə Bakı şəhərində satış mərkəzi yaradılıb. Gələcəkdə müəssisədə istehsal edilən məhsulların xarici bazarlara çıxarılması da planlaşdırılır.

İqtisadi əlaqələri genişlənən müəssisədə daxili bazarın tələbatına uyğun yeni istehsal sahələrinin yaradılması məqsədilə ətin konservləşdirilməsi və tara istehsalı sahələrinin biznes-planı hazırlanıb Sahibkarlığa Kömək Fonduna təqdim olunub. Layihənin reallaşması üçün Sahibkarlığa Kömək Fondundan 2013-cü ilin sentyabr ayında dövlət maliyyə dəstəyi göstərilib və layihənin icrasına başlanılıb. Ətin konservləşdirilməsi istehsalı sahəsi üçün Almaniyanın “ASCA” şirkətindən istehsal gücü saatda 600 ədəd 400 qramlıq tara olan, ətin konservləşdirilməsi istehsalı sahəsində isə istifadə olunacaq tara istehsalı üçün Çin istehsalı olan müasir texnoloji avadanlıqlar alınıb quraşdırılıb. Yüksək keyfiyyət göstəriciləri ilə seçilən bu yerli məhsul alıcılar tərəfindən razılıqla qarşılanıb. Elə bu səbəbdəndir ki, “Müasir Məkan” ət və ət məhsulları istehsalı müəssisəsi “Biznesdə uğur-2014” mükafatının “İlin məhsulu” nominasiyası üzrə qalibi olub.

Cari ildə müəssisədə ətin qovrulması istehsalı sahəsinin yaradılmasına başlanılıb. Layihəyə uyğun olaraq, müəssisənin ərazisində yeni istehsal sahəsi üçün əlverişli şərait yaradılıb. Türkiyə Respublikasının bu sahə üzrə qabaqcıl təcrübəyə malik şirkətləri ilə müqavilələr bağlanılıb, istehsal gücü gündə 2 ton olan müasir texnoloji avadanlıq alınıb gətirilib. Həmin avadanlıqlar şirkətin mütəxəssisləri tərəfindən quraşdırılıb. İstehsal olunan qovurma 0,5, 1 kiloqramlıq taralarda satışa çıxarılacaq. Hazırda ətin qovrulması istehsalı sahəsində sınaq-yoxlama işləri aparılır. Yaxın günlərdə bu yerli məhsul da alıcılara təqdim olunacaq.

Yeni istehsal sahələrinin yaradılması daxili bazarı keyfiyyətli yerli ərzaq məhsulları ilə təmin etməklə yanaşı, yeni iş yerlərinin açılmasına da əlverişli şərait yaradıb. Müəssisə tam gücü ilə fəaliyyət göstərən zaman 15 nəfər daimi işlə təmin olunacaq.

**Kərəm HƏSƏNOV**

*Fevralın 9-da Naxçıvan Muxtar Respublikasında 2014-cü ilin yekunları və qarşıda duran vəzifələrə dair keçirilmiş müşavirədə aidiyyəti orqanlara verilən sahibkarların maarifləndirilməsi, işçilərlə işəgötürənlər arasında əmək müqavilələrinin bağlanmasına diqqətin artırılması, hər bir sahibkara tabeliyində çalışan işçilər üçün normal iş yeri və istirahət şəraitinin yaradılması, xüsusi istehsal müəssisələrində əməyin təşkili və təhlükəsizlik qaydalarına əməl olunmasına nəzarətin artırılması ilə bağlı tapşırığın icrası istiqamətində Naxçıvan Regional Peşə Tədris Mərkəzində növbəti ixtisasartırma kursuna start verilib.*

## Növbəti ixtisasartırma kursuna başlanılıb



Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin “Texniki təhlükəsizlik və əməyin mühafizəsi normaları, qaydaları və standartlarına əməl olunması” mövzusunda təşkil etdiyi kursa martın 12-də başlanılıb. İxtisasartırma kursuna “Gəmiqaya Sənaye Kompleksi”, “Gəmiqaya Daş Məhsulları Kompleksi”, “Gəmiqaya Beton Məmulatları Kompleksi”, “Gəmiqaya Nəqliyyat”, “Dizayn Metaləritmə Zavodu”, “Dizayn Sənaye Kompleksi” Məhdud Məsuliyyətli cəmiyyətlərinin, Cahan Panel-Radiator və Dam Örtükləri Zavodunun, eləcə də Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin qum-çınqıl istehsalı zavodunun, ümumilikdə, 15 mütəxəssisi cəlb olunub. 6 gün davam edəcək kursda Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin mütəxəssisləri tərəfindən işçilər üçün normal iş və istirahət şəraitinin yaradılması, əməyin mühafizəsi və təhlükəsizlik qaydalarına əməl olunması, eləcə də bu istiqamətdə daxili nəzarətin gücləndirilməsi, baş verə biləcək bədbəxt hadisələr və peşə xəstəliklərinin qarşısının alınmasına dair mövzular tədris olunacaq.

Bəhs olunan kursda Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, Səhiyyə Nazirliyinin, Dövlət Baş Sığorta Agentliyinin əməkdaşları tərəfindən iş sahəsində əməyin mühafizəsi və təhlükəsizlik tədbirlərinin görülməməsinə görə məsuliyyət, iş yerlərində sağlam sanitariya-gigiyena şəraitinin yaradılması, baş verən qəzalar zamanı zərərçəkənə ilk tibbi yardımın göstərilməsi, baş verən bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətinin itirilməsi hallarından işçilərin icbari sığorta olunmalarının zəruriliyi ilə bağlı dərslər keçiləcək.

Yekunda kurs iştirakçılarının bu sahədə bilikləri yoxlanılacaq.

**Səbuhi HƏSƏNOV**

## Qaraçuq kəndində ictimaiyyət nümayəndələri ilə görüş keçirilib



Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyi və Ağsaqqallar Şurasının birgə tədbirlər planına uyğun olaraq, muxtar respublikanın rayon mərkəzlərində, kənd yaşayış məntəqələrində ağsaqqallarla, ziyalılarla və gənclərlə görüşlər keçirilir, muxtar respublikanın inkişaf və tərəqqisi barədə söhbətlər aparılır, regionumuzda yaşayıb-yaradan şair və yazıçıların yeni çapdan çıxmış kitablarının təqdimatı təşkil edilir. Növbəti belə tədbir Naxçıvan şəhərinin Qaraçuq Kənd Mərkəzində keçirilib.

Tədbiri giriş sözü ilə Qaraçuq kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Əli Novruzov açıb.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, şair Asim Yadigar və Ağsaqqallar Şurasının sədri, yazıçı Əbülfəz Əsgərli çıxış ediblər.

Qeyd olunub ki, ötən əsrin 90-cı illərinin ağır, çətin günlərini yaşayan Naxçıvan Muxtar Respublikasının hər bir sakini qədim diyarımızın bugünkü sürətli inkişafını görəndə böyük qürur və sevinc hissi yaşayır.

Son 20 ildə həyata keçirilən irimiqyaslı tədbirlər nəticəsində qədim diyarımızın bütün sahələrində misli-görünməmiş nailiyyətlər əldə olunub. Muxtar respublikamızda bu illər ərzində 300-dən çox təhsil, 240-a yaxın səhiyyə, 350-dən çox mədəniyyət müəssisəsi, 41 idman obyekti, 162 körpü, 6350-dən çox istehsal, xidmət və digər obyektlər, 6 yeni elektrik stansiyası, 110-dan artıq kənd mərkəzi və sair tikililərək istifadəyə verilib.

Bildirilib ki, blokada şəraitində yaşamasına baxmayaraq, qədim diyarımız bütün sahələrdə çox böyük uğurlara imza atıb. Bu gün 440 mindən artıq sakin fasiləsiz elektrik enerjisi və təbii qazla təmin olunub. Muxtar respublikamızın bütün yolları yenidən qurulub. Ən ucqar dağ kəndlərinə belə, geniş yollar, qaz xətləri çəkilib.

Vurğulanıb ki, muxtar respublikamızda beynəlxalq tədbirlərin keçirilməsi adi hal alıb. Hər il 350-400 min turist qədim diyarımıza gəlir, tarixi abidələrimizlə, gündən-günə dəyişilən şəhər və kəndlərimizlə yaxından tanış olur. Tarixi abidələrimiz bərpa olunur. Müasir, yeni tarixi abidələr yaradılır.

Tədbir iştirakçılarının diqqətinə çatdırılıb ki, muxtar respublikamızda milli-mənəvi dəyərlərimizin qorunması baxımından çox işlər görülür. İlk növbədə, hər bir vətəndaş milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində alındən gələni əsirgəmir. İndi qədim diyarımızda ləyaqətli, vətənpərvər gənclik formalaşır. Gənclərə qayğı, diqqət artır. Yaradıcı gənclərin əsərlərinin nəşri dövlət tərəfindən həyata keçirilir. Onların asudə vaxtlarının səmərəli təşkili üçün yeni obyektlər tikilib istifadəyə verilib. İdman qurğuları, olimpiya-idman kompleksləri, şahmat məktəbləri, üzgüçülük hovuzları gənclərin fiziki və zehni inkişafına xidmət edir.

Qeyd olunub ki, bütün bunları Qaraçuq kəndinin timsalında da görmək olar. Bu yaşayış məntəqəsində tam orta məktəb, uşaq musiqi məktəbi binaları, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası istifadəyə verilib, kəndarası yol müasir tələblər səviyyəsində yenidən qurulub.

Tədbirdə muxtar respublikamızda yaşayıb-yaradan şairlərin şeirləri səsləndirilib. Onların yeni çapdan çıxmış kitabları kitabxanaya hədiyyə edilib.

Sonda çıxış edən kənd ağsaqqalı və ziyalısı Vəli Vəliyev belə tədbirlərin əhəmiyyətindən danışaraq təşkilatçılara minnətdarlığını bildirib.

✍ **Muxtar MƏMMƏDOV**

## Novruz şənlikləri keçirilən zaman yangın təhlükəsizliyi qaydalarına ciddi əməl olunmalıdır




***Qarşıdan xalqımızın ən əziz bayramı olan Novruz gəlir. Novruz bayramı öz adət-ənənələri ilə xalqımızın tarixi köklərini və milli dəyərlərini özündə yaşadan ümumxalq bayramıdır. Bu bayram gur tonqalları, gözoxşayan noğul-lu-nabatlı, dadlı şirniyyatlı və yanar şamlı xonçaları, yamyaşıl səmənisi, mübarək niyyətləri, diləkləri ilə sevilir.***

Hər il olduğu kimi, bu il də muxtar respublikamızın əhalisi xalqımızın qədim el bayramı olan Novruzu böyük sevinc və yüksək əhval-ruhiyyə ilə qarşılamağa hazırlaşır.

Hər birimizin arzusudur ki, bütün bayramlar kimi, Novruz şənlikləri də ən ülvi duyğularla yaddaşlara həkk olunsun, bayramlar yalnız və yalnız xoş hislərlə xatırlansın. Aparılan təhlillər zamanı aydın olur ki, bayram şənliklərinin və tədbirlərinin keçirilməsi zamanı insanların adi ehtiyatsızlığı səbəbindən yanğınlar baş verir, nəticədə, vətəndaşlarımıza maddi və mənəvi ziyan dəyir.

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi əhalinin bayram şənlikləri və tədbirlərinin keçirilməsi zamanı arzuolunmaz hadisələrlə üzləşməməsi üçün aşağıda sadalanan yanğın təhlükəsizliyi qaydalarının tələblərinə riayət edilməsini tövsiyə edir.

Bir çox hallarda vətəndaşlar tərəfindən tonqal yandırılarkən onun yerinin düzgün seçilməməsi xoşagəlməz fəsadların yaranmasına gətirib çıxarır. Tonqal yandırılan yerlərdə əvvəlcədən təhlükəsizlik tədbirləri həyata keçirmək lazımdır: tonqallar ətrafda olan yanar materiallardan, mühəndis-texniki qurğulardan, qaz xətlərindən, elektrik və rabitə xətləri çəkilmiş dirəklərdən, binalardan, evlərdən, yardımçı tikililərdən, ot-saman tayalarından, tezalışan maye və materiallar saxlanılan yerlərdən kənarda yandırılmalıdır.

Əsən güclü külək zamanı çalışın ki, ümumiyyətlə, tonqalı yandırmayasınız. Bayram şənlikləri zamanı tonqallar tam söndürülənədək nəzarətdə saxlanılmalıdır. Tonqal tam yanıb sönəndən sonra odun közünün ətrafa yayılmaması üçün onun üstü mütləq torpaqlanmalıdır. Unutmaq olmaz ki, zəif bir küləyin əsməsi nəticəsində tam sönməmiş tonqalın közü yanğının baş verməsi üçün mənbə ola bilər.

Novruz şənliklərində yanar mayelərlə hopdurulmuş məşəllərin, partladıcıların və fişənglərin azyaşlı uşaqlar tərəfindən istifadəsinə yol vermək olmaz.

Yüksəkliklərdə, dağ və dağətəyi yerlərdə, eləcə də digər yaşayış sahələrində avtomobil şinlərinin yandırılması qəti qadağandır. Belə hallarda yanan şinlər diyirlənərək ətrafdakı yaşayış sahələrində yeni yanğın ocaqlarının yaranmasına səbəb ola bilər.

Novruz şənliklərinin və tədbirlərinin keçirildiyi küçə və meydanlarda kütləvi şəkildə toplaşan insanlar xoşagəlməz hadisələrin baş verməməsi üçün, mütləq qaydada, bir-birlərinin təhlükəsizliyini qorumalıdırlar.

Milli adət-ənənələrimizə uyğun olaraq, uşaqlar tonqalların üzərindən atlanarkən özlərini yanğından qorumalıdırlar. Bayram tədbirlərində, xüsusən də tonqal ətrafında əyləncə və şənliklərdə azyaşlı uşaqlar mütləq valideynlərin nəzarəti altında olmalıdırlar.

Novruz bayramının bir bəzəyi də xonça bəzəmək, şam yandırmaqdır. Bayram şənlikləri zamanı şam yandırılarkən yanğın təhlükəsizliyi qaydalarına diqqət yetirmək vacibdir. Unutmaq olmaz ki, yanar şamı öz ərintisi ilə stol, kibrit qutusu üzərinə və digər yanar materiallara yapışdırmaq yanğın təhlükəsizliyi cəhətdən yolverilməzdir. Yanar şamın nəzarətsiz qoyulması xoşagəlməz hadisələrin baş verməsinə səbəb ola bilər.

Bayram tədbirləri zamanı əhali ilə yanaşı, idarə, müəssisə və təşkilat rəhbərləri, xüsusən də mədəniyyət və təhsil müəssisələri yanğın təhlükəsizliyi qaydalarına nəzarəti daha da gücləndirməli, qabaqlayıcı tədbirlər görməlidirlər.

Vətəndaşlarımıza bir daha tövsiyə edirik ki, milli bayramımız olan Novruzu acı sonluqla başa vurmamaq üçün yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl etsinlər. Bayram şənliklərinin keçirilməsi zamanı vətəndaşlarımız yanğın hadisələri ilə üzləşdikdə dərhal Fövqəladə Hallar Nazirliyinin **"112"** qaynar xəttinə və ya Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin **"101"** xidmətinə məlumat verməyi unutmamalıdırlar.

**Azər QASIMOV**
***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşı, daxili xidmət kapitanı***

## Estrada orkestrinin rayon mərkəzlərində konsertlərinə başlanılıb

***İlk belə tədbir martın 12-də Babək Rayon Mədəniyyət Evində təşkil olunub.***



Naxçıvan Dövlət Filarmoniyasının Estrada Orkestrinin konsertində filarmoniyanın solistlərindən Əli Davudi, Yaşar Qurbanov, Elçin Nağıyev, Qəribə Həsənova, Tural Nəcəfov tərəfindən ifa edilən "Azərbaycan bayrağı dalğalanır", "Bayram marşı", "Naxçıvanım", "Zibeydə", "Sən mənim, mən sənin", "May Vey" və digər mahnılar tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb. Estrada orkestrinin ifasında səsləndirilən bəstəkar S.Əliyevanın "Ana intizarı", Şubertin "Axşam serenadası", Karlosun "Tanqo" əsərləri konsertə xüsusi ab-hava qatıb. Konsertdə bəstəkar Tofiq Quliyevin, Ramiz Mirişlinin, Xəyyam Mirzəzadənin, klassiklərdən Yohann Ştrausun, Şubertin bəstələrini də səsləndirən estrada orkestri yüksək səviyyəli professional orkestr olduğunu bir daha nümayiş etdirib və böyük tamaşaçı rəğbəti qazanıb.

**Xəbərlər şöbəsi**

## Uşaq musiqi məktəbləri konsert proqramları ilə çıxış edirlər



***Dünən Şahbuz rayonundakı Şahbuzkənddə rayon Uşaq musiqi məktəbinin kollektivi konsert proqramı ilə çıxış edib.***

Konsert proqramında musiqi məktəbinin xor kollektivi ilə yanaşı, solo ifaçılar və saz ansamblının üzvləri tərəfindən müxtəlif əsərlər, mahnılar və musiqilər ifa olunub. Konsertdə Azərbaycan xalq mahnı və musiqiləri, muğam və təsnifləri, bəstəkar mahnıları səsləndirilib, fortepianoda dünya klassiklərinin əsərləri ifa edilib. Məktəbin şagirdlərindən Şəbnəm Məmmədova, Aygün Aydınlı və başqaları ifa etdikləri musiqi nömrələrini həvəslə dinləyicilərə çatdırıblar. Bununla yanaşı, tarda, kamançada, sazda solo ifalar edən Elmin Əliyev, Nihad Seyidov, Aişə Əsədli və başqaları öz musiqi istedadlarını ifaları ilə göstəriblər. Saz ansamblının üzvləri də bir neçə aşıq havası ifa etməklə xalqımıza məxsus bu milli musiqinin ecazkarlığını bir daha izhar ediblər. Şahbuzkənd ziyalılarının, ictimaiyyət nümayəndələrinin qarşısında çıxış edən rayonun Uşaq musiqi məktəbi kollektivinin üzvləri tədbir boyu tamaşaçıları heyrətləndiriblər. Çünki səlis, məharətlə və ürəkdən ifa olunan hər bir mahnı, musiqi sanki ilk dəfə ifa olunurmuş kimi dinləyicilərdə xoş ovqat yaradıb.

Qeyd edək ki, konsert kənd mərkəzində keçirilib. Müasir üslubda tikilmiş bu sosial obyektdə belə tədbirlərin keçirilməsi adi hal alıb. Əvvəllər hər hansı bir tədbirin keçirilməsi üçün belə nümunəvi məkanın olmaması kənd sakinlərini də narazı salırdı. Lakin bu gün tez-tez eşitdiyimiz kəndlə şəhər arasındakı fərq aradan qaldırılıb ifadəsi belə tədbirlər zamanı bir daha öz təsdiqini tapır. Şahbuzkənddə Novruz bayramı ərəfəsində gənc istedadların birləşdiyi rayon Uşaq musiqi məktəbinin şagirdləri tərəfindən belə bir konsert proqramının təqdim olunması özü də onu göstərir ki, tikinti, yenidənqurma işləri regionlarda hər bir sahənin inkişafına, o cümlədən insanların asudə vaxtlarının belə mədəni-kütləvi tədbirlərdə keçməsinə imkan verir.

Məlumat üçün bildirək ki, bundan əvvəl Kəngərli rayonunun Qıvraq Qəsəbə, Çalxanqala Kənd və Şahbuz rayonunun Kolanı Kənd Uşaq musiqi məktəblərinin musiqi kollektivləri həmin yaşayış məntəqələrində konsert proqramları ilə çıxışlar ediblər.

**Şəhla NƏBİYEVA**

## Basketbol birinciliyi

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin tədbirlər planına əsasən, Şərur rayonunda basketbol üzrə rayon birinciliyi keçirilib. Şərur Rayon Gənclər və İdman İdarəsi ilə Təhsil Şöbəsinin birgə təşkil etdiyi birincilikdə 10 ümumtəhsil məktəbinin komandası mübarizə aparıb.

Birinciliyin yekun nəticəsinə əsasən, finalda Siyaqut kənd tam orta məktəbinin komandasını məğlub edən Yengicə kənd tam orta məktəbinin komandası qalib adını qazanıb. Üçüncü yerə isə Dərəkənd tam orta məktəbinin komandası layiq görülüb.

Qaliblər təşkilatçılar tərəfindən kubok və diplomlarla mükafatlandırılıblar.

## Hərbi-idman oyununun qalibi müəyyənləşdi

Babək Rayon Gənclər və İdman İdarəsinin, Təhsil Şöbəsinin və Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Babək Rayon İdarəsinin birgə təşkilatçılığı ilə "N" hərbi hissədə Babək rayon ümumtəhsil məktəblərinin komandaları arasında "Şahin" hərbi-idman oyununun rayon birinciliyi keçirilib. Birincilikdə 17 məktəbin komandası mübarizə aparıb.

Nehrəm kənd 1 nömrəli tam orta məktəbin komandası hərbi-idman oyununun qalibi olub. Şıxmahmud və Sirab kənd tam orta məktəblərinin komandaları isə müvafiq olaraq ikinci və üçüncü yerlərə layiq görülüblər. Qalib komandalara təşkilatçılar tərəfindən hədiyyələr və diplomlar təqdim edilib.

✍ **Ceyhun MƏMMƏDOV**


**ŞƏRQ qapısı**
Baş redaktor: TURAL ƏSƏFƏROV

*Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 4020. Sifariş № 225